# Dünyanın ən böyük hava limanı açıldı

Dünən İstanbulda dünyanın ən böyük hava limanının birinci hissəsinin açılışı olmuşdur. Yeni aeroportun adını Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hava limanın rəsmi açılış mərasimində bildirib.



O deyib ki, birinci mərhələsi başa çatdırılıb istifadəyə verilən yeni aeroportun adı "İstanbul" olacaq. Türkiyə lideri bunun Türkiyə üçün fəxarət və bütün dünya üçün örnək olduğunu qeyd etmişdir. O, ümidvar olduğunu bildirmişdir ki, yeni hava limanının açılışı təkcə Türkiyə üçün deyil, ümumilikdə bütün dünya üçün fayda verəcək.

Dövlət başçısı vurğulamışdır ki, "İstanbul" aeroportunun istifadəyə verilməsindən sonra Avropada bütün hava daşımaları strukturu dəyişəcək.

Hava limanı ilk mərhələdə ildə 90 milyon sərnişinə xidmət edəcək. Bütün mərhələlər tamamlandıqdan sonra bu rəqəm 200 milyona çatdırılacaq.

"İstanbul"un tikintisinin tamamlanması 2028-ci ildə nəzərdə tutulmuşdur. Yeni aeroport 76,5 milyon kvadrat ərazini əhatə edir. Onun inşasına 10 milyard avrodan çox investisiya qoyulmuşdur. İlkin mərhələnin tikintisi üçün 6 milyard avro ayrılmışdır. İnşaat işləri 42 aya tamamlanmışdır.

İlk mərhələdə iki uçuş-enmə zolağı, 1,4 milyon kvadratmetr sahəsi olan terminal, dispetçer qülləsi və yardımçı binalar istismara veriləcək. "İstanbul"da 200 minə yaxın mütəxəssis işləyəcək. Ümumilikdə aeroportda 6 uçuş-enmə zolağı, 500 təyyarəlik dayanacaq, habelə 70 min avtomobil üçün açıq və bağlı park yeri olacaq.

"İstanbul" yeni hava limanından ilk uçuş noyabrın 1-də paytaxt Ankaraya həyata keçiriləcək. Türk Hava Yolları şirkəti ilkin mərhələdə Ankara, İzmir və Antalyaya qarşılıqlı uçuşlar edəcək. Xaricə ilk səfərlər isə Azərbaycan və Şimali Kipr Türk Cümhuriyyətinə olacaq. Noyabrın 1-də Ercana, noyabrın 8-də isə Bakıya reys həyata keçiriləcək.

Dünyanın ən böyük hava limanının açılış mərasimində Azərbaycan, Makedoniya, Albaniya, Qətər, Qırğızıstan, Moldova, Pakistan, Serbiya, Sudan, Bosniya və Herseqovina, Bolqarıstan, Sloveniya, Gürcüstan, İran, Moldova nümayəndə heyətləri iştirak etmişlər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.- 30 oktyabr.- S.8.